**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN KOLLEGİYASI**

**Q Ə R A R**
**№ 60-1**

**Bakı şəhəri** **08 iyul 2022-ci il**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci ilin birinci yarısında fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair məlumat**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Əsasnaməsində müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə 2022-ci ilin birinci yarımilliyi üçün təsdiq edilmiş İş Planınında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində öz işini qurmuşdur.

Cari yarımil ərzində Komitə 10 Dövlət Proqramı üzrə öhdəliklərini və eyni zamanda 4 Milli Fəaliyyət Planlanının icrası istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

**Komitə tərəfindən hazırlanan sənəd layihələri:**

- "Azərbaycan Respublikasında Qadın məşğulluğunun təminatı ilə bağlı 2023-2025-cü illər üçün Milli Fəaliyyət Planı"
- "Gender Bərabərliyi üzrə 2022-2025-ci illər üçün Milli Fəaliyyət Planı"
- BMT TŞ-nın "Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair Milli Fəaliyyət Planı"

**Komitə tərəfindən rəy və təklif verilən Qanun, Dövlət Proqrmaları layihləri və digər normativ hüquqi sənədlər:**

- "2022-2026-cı illər üçün İİV/QİCS-lə mübarizə üzrə Dövlət Proqramı"
- "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanunu
- Cari ildə Ciddə şəhərində Hökumətlərarası Ekspertlər Qrupu tərəfindən müzakirəsi nəzərdə tutulmuş İƏT Uşaq Hüquqları Konvensiyası;
- Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın 4.1.9-cu yarımbəndinin icrası məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış normativ hüquqi akt
- Baş Prokurorluqdan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına daxil olmuş bəzi qanunvericilik aktlarının (Cinayət Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, Cinayət Prosessual Məcəlləsi və s.) təkmilləşdirilməsi ilə bağlı hazırlanmış qanun layihələri.

**Postmüharibə dövründə psixo-sosial işin aparılması.** Postmüharibə dövründə psixososial işin aparılması məqsədilə, 55 şəhid və qazi ailəsinə səfər edilmiş və həmin ailələrdən olan uşaqlar Mərkəz xidmətlərinə və dərnəklərinə cəlb edilmişdir. İyun ayında Ağdam rayonunun Xındırıstan kəndində və Goranboy rayonunun Qızılhacılı qəsəbəsində 6-16 yaşlı 100 uşaqla **"Postmüharibə dövründə uşaqlar və şəhid ailələrinə psixososial dəstək"** layihəsinə başlanılmışdır.

Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq **beynəlxalq və milli səviyyədə qeyd edilən əlamətdar günlərlə** bağlı Komitə və UADM-lər tərəfindən 135 tədbir keçirilmiş, 1795 nəfər iştirak etmişdir.

**Komitəyə daxil olan vətəndaş müraciətlərinə baxılması, təhlilin aparılması və aidiyyəti üzrə əlaqələndirilməsi ilə bağlı işlərin görülməsi.**

2022-ci ilin birinci yarımili ərzində Komitəyə 2134 vətəndaş müracəti, 768 xidməti məktub daxil olmuşdur.

Komitəyə məişət zorakılığı ilə bağlı daxil olan 208 müraciət ilə bağlı yerli icra hakimiyyəti orqanlarından 100 cavab məktubu alınmış və bu cavab məktublarının təhlili aparılmışdır.

Həmçinin qeyri-hökümət təşkilatlarından məişət zorakılığına məruz qalmış şəxslərlə bağlı 8 müraciət daxil olmuşdur. Müraciətlər nəzarətə götürülərək baxılması üçün aidiyyəti qurumlara gönləndirilmişdir.

**Sosial şəbəkələr vasitəsilə** cari yarımil ərzində Komitəyə 64 müraciət daxil olmuşdur.

**Komitə Kütləvi İnformasiya Vasitələri ilə** səmərəli əməkdaşlıq edərək, KİV tərəfindən daxil olmuş 180 media müraciətinin cavablandırılması təmin etmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Komitənin təşkilatçılığı ilə müvafiq şəhər və rayon prokurorluqlarının media ilə işləməyə məsul əməkdaşların, digər dövlət və media qurumlarının, qeyri-hökümət təşkilarlarının və təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə "Müasir dövrün çağırışlarında media ilə dialoq" adlı konfrans və media işçiləri üçün təlim keçirilmişdir.

Komitə və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə media nümayəndələri üçün "Mediada gender bərabərliyi və peşəkarlıq" mövzusunda 25 jurnalistin iştirakı ilə 2 günlük təlim təşkil edilmişdir.

Komitə yanında İctimai Şuranın təklifi ilə Komitə tərəfindən sosial şəbəkə blogerləri arasında "Ailə dəyərləri, qadın və uşaq hüquqlarının təbliği üzrə ən fəal bloger" müsabiqəsi elan edilmişdir.

Qəbələ, İsmayıllı, Qusar, Lənkəran və Astara məktəblərinin 5-7-ci sinif şagirdlərinin iştirakı ilə "İnternetdən təhlükəsiz istifadə üçün maariflənək" mövzusunda 200-ə yaxın uşağın iştirakı ilə təlim keçirilmişdir.

"Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na əsasən "İnanın. Onlar bacarar" adlı sosial çarx hazırlanmışdır.

Komitənin "Ailə və Bərabər İnkişaf" adlı jurnalı hazırlanmış və rəsmi sayta yerləşdirilmişdir.

"Ailədə uşaqların hüquqlarını qoruyaq, oxuyaq və paylaşaq, uşaqlara laqeyd qalmayaq" adlı elektron **çap vəsaiti** hazırlanaraq Komitənin sosial şəbəkələrində paylaşılmışdır.

**Cari yarımildə Komitə tərəfindən aşağıda qeyd edilən araşdırma, təhlil və sorğuların aparılmasına başlanılmışdır:**

- Uşaq nikahlarının aradan qaldırılması məqsədilə araşdırma və təhlili;
- Uşaqlara qarşı zorakılıqla bağlı problemlərin öyrənilməsi məqsədilə statistik təhlillərin aparılması;
- Küçə həyatına məruz qalan uşaqlarla, o cümlədən dilənciliyə cəlb edilən yetkinlik yaşına çatmayanlarla bağlı araşdırmanın aparılması və müvafiq təhlilin hazırlanması
- "Erkən uşaqlıq dövründə uşaqlara göstərilən sosial xidmətlər" mövzusunda təhlilin aparılması
- İntiharlarla bağlı jurnalist araşdırması;
- "Elmdə və təhsildə gender təhlili" araşdırmasının aparılması.
- Uşaqlar arasında internetdən istifadə səviyyəsinin ölçülməsi məqsədilə onlayn sorğuların keçirilməsi;

**Ailə məsələləri ilə bağlı keçirilən** 32 tədbirdə 2582 nəfər iştirak edərək faydalanmışdır. 420-dən çox maarifləndirmə vəsaiti tədbir iştirakçılarına paylanılmışdır.

Komitə tərəfindən ailə məsələləri sahəsində **"Həyatının memarı-Sən özünsən", "Birlikdə faydalanaq", "Oxuyaq və paylaşaq", "İnsan alveri və məcburi əməyə YOX deyək!**" adlı sosial layihələr həyata keçirilmişdir. Bu layihələr çərçivəsində "Təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması", "Sağlam ətraf mühit və sağlam həyat tərzi", "Ailənin psixoloji iqlimi" və "Hüquqlarımızı tanıyaq" və s. digər müxtəlif mövzularda tədbir və görüşlər keçirilmişdir.

Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində şagird və müəllim heyətinin iştirakı ilə "Sağlam ətraf mühit və sağlam həyat tərzi" mövzusunda tədbir keçirilmişdir.

Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Məktəblinin dostu**"** layihəsi çərçivəsində Komitə tərəfindən "Ailə dəyərləri", "Milli-mənəvi dəyərlər", "Ailə dəyərlərinin övlad-valideyn münasibətlərinə təsiri" mövzularında Bakı şəhərinin Xətai, Binəqədi rayonlarının və Sumqayıt şəhərinin bir neçə təhsil müəssisələrində təlimlər keçirilmişdir.

"Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"ndan irəli gələn öhdəliklərin icrasına dair həyata keçirilən tədbirlərin davamı olaraq, Sabunçu rayonunun Maştağa, Nardaran, Bilgəh, Bakıxanov, Sabunçu, Ramana qəsəbələrində, Qobustan və Şamaxı RİH ilə birgə Qobustan və Şamaxı rayonlarında erkən nikahların və qız uşaqlarının təhsildən yayınmasının qarşısının alınması məqsədilə görüşlər təşkil edilmişdir.

Azercell mobil şəbəkəsindən geniş kütlənin istifadə etməsini nəzərə alaraq, Komitə və "Azercell MMC" Telecom şirkətinin sosial-maarifləndirmə yönümlü birgə əməkdaşlığı çərçivəsində 18-35 yaş kateqoriyalarını əhatə edən əlli min nəfər kişi və qadın abunəçilərə ailə ilə bağlı sosial-maarifləndirmə yönümlü mesajlar göndərilmişdir.

**Qadın problemləri və gender məsələləri sahəsində** 4 region üzrə keçirilmiş 14 tədbirdə 1190 iştirakçı faydalanmışdır. Komitənin BMT-nin İnkişaf Proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin əməkdaşlığı ilə birgə "Sahibkarlığa və Məşğulluğa İqtisadi Dəstək" layihəsi çərçivəsində Sumqayıt, Xaçmaz və Bərdə Qadın Resurs Mərkəzləri açılmışdır.

Komitə tərərfindən 8 mart Beynəlxalq Qadınlar günü münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunan, 2021-ci ildə "Yüksəliş" müsabiqəsində qalib olan, Azərbaycanın ictimai-siyasi sahələrində uğur qazanan qadınların iştirakı ilə tədbir keçirilmişdir.

Komitə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin birgə təşkilatçılığı ilə "**Qadın hüquqları yeni ictimai-siyasi reallıqlar kontekstində"**, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümünə həsr edilmiş **"Nurlu ömrün işığı",** Gənclər və İdman Nazirliyinin əməkdaşlığı ilə birgə Lənkəran şəhərində **"Narkomaniyaya Yox Deyək"** mövzusularında konfranslar həyata keçirmişdir.

Bakı Dövlət Universitetində gənc qızların hüquq mühafizə orqanlarında xidmətə həvəsləndirilməsi məqsədilə onların qeyd olunan sahədə təcrübəli qadın əməkdaşlarla görüşü təşkil edilmiş, bu istiqamətdə görüş iştirakçıları ilə fikir mübadiləsi aparılmışdır.

Komitə tərəfindən Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün "Gender və insan hüquqları" mözusunda video formatda təlim keçirilmişdir. Təlimdə gender məsələləri, insan hüquqları, erkən nikahlar, onların baş vermə səbəbləri və qarşısının alınması istiqamətində həyata keçirilən işlər, mövcud beynəlxalq və milli qanunverilik aktları barədə məlumat verilmişdir.

Komitənin BMT İnkişaf Proqramı (UNDP) ilə birgə icra etdiyi **"Sahibkarlığa və məşğulluğa iqtisadi dəstək"** layihəsinin 6 biznes qalibi "Sahibkarlar Günü" münasibəti ilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkil etdiyi "KOB FEST" sərgi-satış yarmarkasında iştirak etmişdir. Yarmarkada 100-ə yaxın mikro və kiçik sahibkarlıq subyektinin 1000-dən çox çeşiddə məhsulu təqdim olunmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "**Şuşa bizim milli rəmzimizdir"** mövzusunda gənc yazarlar və jurnalistlər arasında "Ən yaxşı yazı" Müsabiqəsi elan etmişdir. Müsabiqənin yekunlarına həsr olunmuş tədbirdə müsabiqənin qaliblərinə diplom və hədiyyələr təqdim olunmuşdur.

**Uşaq məsələləri ilə bağlı 14 region üzrə keçirilmiş 17 tədbirdə 956 iştirakçı faydalanmışdır**.

"Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair 2021-ci il üzrə ölkə hesabatı hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş və monitorinq keçirilməsi nəzərdə tutulan uşaq müəssisələrinin siyahısına əsasən 3 dövri və 1 növbədənkənar monitorinq təşkil olunmuşdur.

Cari yarımildə İraq və Suriya Ərəb Respublikasından Azərbaycan Respublikasına ölkə vətəndaşı olan 22 uşaq repatriasiya və deportasiya edilmiş, ailələri tərəfindən qəyyumluq və himayəçiliyə götürülmüşdür. Komitə tərəfindən aidiyyəti rayon İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın əməkdaşlarının iştirakı ilə mütəmadi işlər aparılır.

Komitənin təşəbbüsü ilə İctimai Televiziyada (İTV) yayımlanan "Sabaha saxlamayaq" verilişində "Uşaqlarımızı zərərli informasiyalardan necə qoruyaq?" mövzusu müzakirə edilmişdir.

Komitə tərəfindən "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununun 13-cü maddəsinə əsasən rəsmi internet

informasiya ehtiyatında informasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertə ixtisas attestatı verilmişdir.

“Regional İnkişaf” İctimai Birliyi ilə birgə **“Uşaq müdafiəsi sahəsində dövlət qurumları və vətəndaş cəmiyyətinin dialoqu”** mövzusunda tədbir keçirilmişdir.

**“Uşaq Səfirlər Məclisi”** nin təşəbbüsü ilə **“Uşaqdan uşağa**” layihəsi çərçivəsində Türkiyədə fəaliyyət göstərən “Hempa Çocuk Derneği”nin birgə təşkilatçılığı ilə onlayn formatda **"Xəyalların Sərhədi Yoxdur" adlı** interaktiv konfrans, **“Qızlar müzakirəyə qoşulur”** layihəsi çərçivəsində Şüvələn Gənclər evində canlı, İmişli və Samux rayonlarında onlayn görüşlər, ADA-nın birgə təşkilatçılığı ilə **“Şuşa-mədəni irsimiz”** adlı intellektual yarış, Quba rayonunda uşaq hüquqları haqqında təlim və Uşaq Səfirlər Məclisinin saytının təqdimatı keçirilmişdir.

Komitənin və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının Peşəkar İxtisasartırma Proqramın birgə təşkilatçılığı və Təhsil Nazirliyin dəstəyi ilə Bakı və Sumqayıt şəhərlərinin orta ümumtəhsil müəssisələrində fəaliyyət göstərən 60-a yaxın məktəb psixoloqları üçün “Sosial-Emosional Öyrənmə” adlı 2 günlük onlayn təlim keçirilmişdir.

“Azəralüminium” MMC ilə əməkdaşlıq çərçivəsində talassemiya, hemofiliya və leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək məqsədilə **“Arzulara qanad verək” adlı** qanvermə aksiyası keçirilmişdir. ( 250 nəfər)

Bakı Metropolitenə məxsus olan reklam lövhələrində və monitorlarda “Valideyn qayğısı – usaqların təhlükəsizliyi”, “Uşaqları sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qoruyaq!”, “Sizin qızınız olacaq!”, “18 yaşadək evlilik - Uşaq evliliyidir!” mövzusunda **elektron posterlər** Bakı Metropoliteninin stansiyalarında yerləşdirilmişdir.

Ağstafa rayonunda “Uşaq əməyinin istismarının qarşının alınması” mövzusunda Ağstafa, Tovuz, Şəmkir və Qazax rayon icra hakimiyyəti orqanlarının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalarının, yetkinlik yaşına çatmayanlarla işləyən polis inspektorların, kiçik və orta bizneslə məşğul olan sahibkarların, rayon polis idarələrinin post patrul xiidmətinin manqa komandirlərinin, Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşlarının iştirakı ilə təlim keçirilmişdir.

**Cari yarımil ərzində Komitənin Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə** 1301 nəfər tərəfindən müxtəlif mövzularda 1624 müraciət edilmişdir. Bu müraciətlərdən 997-si təmin olunmuşdur. Müraciətlərdən 447-ü uşaq məsələləri ilə, 44 əlilliyi olan uşaqlarla bağlı olmuşdur. 6 ay ərzində 407 ailəyə səfər edilmişdir.

Cari yarımildə keçirilən 325 tədbir və 20 təlimdə 10281 nəfər iştirak etmişdir. 10 Dövlət proqramının 18 bəndi üzrə 210 tədbir keçirilmiş, 5364 nüsxə buklet paylanılmış, “Ailə başçısına məktub” aksiyası davam etdirilmişdir.

11 UADM və 17 İcma Resurs Mərkəzləri tərəfindən mart və iyun ayında “açıq qapı” günlərində müxtəlif mövzularla bağlı müraciət edən 747 vətəndaşa psixoloji, hüquqi və sosial problemlərin həlli üzrə dəstək göstərilmişdir.

İsmayıllı və Göygöl rayonlarında Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM) tərəfindən 123 nəfərin iştirakı ilə Aprel döyüşlərinin altıncı ildönümünə həsr olunmuş tədbirlər keçirilmişdir.

Mərkəzlərinin fəaliyyətinin təbliği məqsədilə 27 məqalə yazılmış, 14 teleradio çıxışı olmuşdur. Həssas əhali qrupdan olan ailələrin cəmiyyətə tanıdılması məqsədilə Göygöl, İsmayıllı və Zaqatala rayonlarından olan istedadlı uşaqlarla bağlı televiziya çəkilişləri olmuşdur.

6 ay ərzində Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən ümumilikdə 12278 nəfər bəhrələnmişdir.

**Beynəlxalq əlaqələrin inkişafı sahəsində fəaliyyətlər.**

Komitə sədrinin Belçika Krallığının və Latviyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri, BMT-nin Əhali Fondunun Türkiyədəki Nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru, BQXK-nın Azərbaycan nümayəndəliyinin rəhbəri vəzifəsində fəaliyyətini başa çatdıran xanım Ariane Bauer, BQXK-nın Azərbaycan nümayəndəliyinin yeni rəhbəri, BMT-nin Əhali Fondunun (UNFPA) Türkiyədəki nümayəndəsi və Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru ilə görüşləri keçirilmişdir.

Eyni zamanda Komitəs sədri Özbəkistan Respublikasının Qadın Sahibkarlar Klubunun nümayəndə heyətini qəbul etmişdir.

Qarşılıqlı təcrübə və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məqsədilə Komitə sədri Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər naziri ilə Türkiyə Respublikasında səfərdə olmuşdur.

Komitə tərəfindən 17 ay davam edən “Azərbaycanda məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi” adlı Tvinninq layihəsi yekun tədbiri keçirilmişdir.

Komitə və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında ailə, qadın və uşaq məsələləri üzrə Əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Memoranduma əsasən Litva və Azərbaycan ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəlinmişdir.

Komitə sədri BMT-nin Azərbaycan Nümayəndəliyinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qadın, sülh və təhlükəsizlik: Post münaqişə dövründə bərpa işlərində qadınların rolu" mövzusunda keçirilmiş konfransda və BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının 66-cı sessiyasında "İqlim dəyişikliyi, ətraf mühit və fəlakət risklərinin azaldılması strategiyaları və proqramları kontekstində gender bərabərliyi, bütün qadın və qızların səlahiyyətlərinin artırılmasına nail olmaq" mövzusuna həsr edilmiş nazirlər səviyyəsində dəyirmi masada onlayn formatda iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə müəyyən edilmiş aidiyyəti dövlət orqanlarının yüksək səviyyəli nümayəndə heyəti Komitə sədrinin rəhbərliyi ilə 14-17 iyun 2022-ci il tarixlərində İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə səfər etmişdir. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin Cenevrə şəhərində keçirilən 82-ci sessiyasında Azərbaycan Hökumətinin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyası”nın icrasına dair altıncı dövri hesabatı təqdim edilmişdir.

Cari yarımildə “Avropa İttifaqı-Azərbaycan İllik Fəaliyyət Proqramı”nın müzakirəsi həyata keçirilmişdir. Avropa İttifaqı - Azərbaycan prioritetləri üzrə fikir mübadiləsinin aparılması məqsədilə keçirilən müzakirədə Komitənin sədr müavini S.Qəhrəmanova iştirak etmiş və təkliflər səsləndirmişdir.

Eyni zamanda Komitə tərəfindən Avropa Şurası və Avropa İttifaqının birgə həyata keçirdiyi Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq (PGG II) proqramı üzrə Yerli Rəhbər Komitənin video-konfransında, Strasburqda Avropa Şurası Gender Bərabərliyi üzrə Komissiyasının 21-ci sessiyasında iştirak təmin edilmişdir.

**Məişət zorakılığı ilə mübarizə sahəsində tədbirlər.**

Komitə tərəfindən Azərbaycan Texniki Universitetinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələrinin iştirakı ilə “**Məişət zorakılığına YOX deyək!”** adlı tədbir keçirilmişdir.

Komitənin təklifi əsasında Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və NIRAS İsveç təşkilatı tərəfindən koordinasiya şəraitində həyata keçirilən “EU4Gender Equality: Reform Help Desk” layihəsi çərçivəsində məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslər üçün xüsusi dəstək proqramlarına dair təlimat hazırlanmışdır.

Məişət zorakılığının qarşısının alınması sahəsində mövcud hüquqi və institusional mexanizimlərin əhali arasında təşviqinin gücləndirilməsi və zərərçəkmiş şəxslərin vaxtında aşkar edilməsi məqsədi ilə Bakı şəhərinin 12 rayon İcra Hakimiyyətində yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının üzvləri ilə tədbir keçirilmişdir və onlara tövsiyələr verilmişdir.

Həmçinin il ərzində kütləvi informasiya vasitələrində məişət zorakılığına müdafiə vasitələrinə dair məlumatların yayılması təmin edilmişdir

Komitə tərərfindən Şirvan, Quba, Qax, Abşeron, Cəlilabad, Tovuz Peşə litseylərində tələbə və müəllim heyəti üçün “Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə” mövzusunda təlimlər keçirlmişdir

Eyni zamanda Komitə tərərfindən Şirvan, Cəlilabad, Tovuz, Quba, Qax, Abşeron Rayon İcra Hakmiyyətləridə Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun üzvləri ilə görüş keçirilmişdir.

Həmçinin yarımilliyin yekunu olaraq  Bakı şəhərinin rayon icra hakimiyyətlərində yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının üzvləri ilə görüş keçirilmişdir. Görüşlər zamanı məişət zorakılığı qarşısının alınması zamanı qarşıya çıxan problemlər və bu sahədə qanunvericiliiyin tələblərinin dəqiq və vaxtında icrasının təmin edilməsi ilə bağlı  bir sıra məsələlər müzakirə edilmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar məruzə və çıxışları nəzərə alaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci ilin birinci yarısında fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair məlumat nəzərə alınsın.
2. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aidiyyəti şöbələri Komitənin üzərinə düşən Dövlət Proqramları və Milli Fəaliyyət Planlarının icrası ilə bağlı tədbirlərin həyata keçirilməsi və hesabatların hazırlanması işlərini gücləndirsin.
3. Ailə problemləri şöbəsi ailə dəyərlərinin təbliği və dövlətin ailə siyasəti istiqamətində tədbirlərin keçirilməsini, “Ailə Strategiyası” layihəsinin hazırlanmasına dair işləri davam etdirsin.
4. Qadın problemləri və gender məsələləri şöbəsi Bələdiyyələrdə yaradılmış Gender Kommisiyalarının işinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirsin.
5. Uşaq problemləri şöbəsi “Uşaq Strategiyasının həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı”nın icrası ilə bağlı işləri gücləndirsin.
6. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, Komitəyə müraciət etmiş məişət zorakılığı qurbanlarının hüquqlarının bərpasına nəzarəti və yerli rayon icra hakimiyyətlərində yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə işləri günün tələbləri səviyyəsinə qaldırılmasını təmin etsin.

**7.** Regional mərkəzlərlə iş şöbəsi Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyət istiqamətləri üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərə yaxın bölgələrdə yaşayan ailələr ilə psixo-sosial işin aparılmasını davam etdirsin.

**8.** İnformasiya və analitik araşdırmalar şöbəsi Komitənin fəaliyyət istiqamətləri sahəsində Media və vətəndaş cəmiyyəti, müvafiq sahələrdə maarifləndirici materialların hazırlanması və yayımlanması, sosial mediada fəaliyyətin gücləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin.

**9.** Xarici əlaqələr və protokol xidməti şöbəsi BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına dair Azərbaycan Hökumətinin beşinci və altıncı dövri məruzəsi üzrə keçiriləcək sessiyaya hazırlığın təşkil edilməsini, həmçinin BMT və Avropa Şurasının müvafiq Komitələrinin iclaslarında iştirakı təmin etsin.

**10.** Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya, aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**